# *“ƏDƏB VƏ ƏXLAQ MÖVZUSUNDA 100 HƏDİS.”*

TOPLAYAN VƏ TƏRTİB EDƏN ARİF ALLAHYAROV

Rəcəb ayının 22-i 1446-cı il.

BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM

MƏRHƏMƏTLİ VƏ RƏHİMLİ ALLAHIN ADI İLƏ

**HƏDİSİN TƏRİFİ.**

*«HƏDİS – ALLAH RƏSULUNUN - ona Allahın salavatı və salamı olsun - DEDİYİ SÖZLƏR, ETDİYİ ƏMƏLLƏR, HÜZURUNDA BAŞ VERƏN HADİSƏYƏ SUSMAQLA RAZILIQ GÖSTƏRMƏSİ, ALLAH RƏSULUNUN - ona Allahın salavatı və salamı olsun - YARADILIŞ VƏSFLƏRİ VƏ ƏXLAQİ VƏSFLƏRİDİR. BU TƏRİF HƏMÇİNİN SÜNNƏNİN DƏ TƏRİFİDİR. HƏDİS VƏ SÜNNƏ EYNİ MƏNADADIR.»*

**SÜNNƏNİN NÖVLƏRİ.**

QÖVLİ SÜNNƏ. FEİLİ SÜNNƏ. TƏQRİRİ SÜNNƏ. YARADILIŞ VƏSFLƏRİ. ƏXLAQİ VƏSFLƏRİ.

**HƏDİS: 1.**

*MUAZ İBN CƏBƏLDƏN - Allah ondan razı olsun - RƏVAYƏT OLUNAN HƏDİSDƏ DEYİR: "ALLAH RƏSULU MƏNİM ƏLİMDƏN TUTDU VƏ MƏNƏ DEDİ:* «EY MUAZ, ALLAHA AND OLSUN Kİ, MƏN SƏNİ SEVİRƏM. ALLAHA AND OLSUN Kİ, MƏN SƏNİ SEVİRƏM. EY MUAZ, MƏN SƏNƏ HƏR NAMAZIN AXIRINDA "ALLAHIM, SƏNİ ZİKR ETMƏKDƏ, SƏNƏ ŞÜKÜR ETMƏKDƏ VƏ SƏNƏ GÖZƏL ŞƏKİLDƏ İBADƏT ETMƏKDƏ MƏNƏ KÖMƏKLİK ET", - DEMƏYİ TƏRK ETMƏMƏYİ TÖVSİYƏ EDİRƏM. »[1]

**HƏDİS: 2.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «BİR MÜSƏLMANIN BAŞQA BİR MÜSƏLMANI QORXUDUB ONU DİKSİNDİRMƏYİ İCAZƏLİ DEYİLDİR.»[2]

[1] Sunən ət-Tirmizi, 1522.
[2] Sunən Əbu-Davud, 5004.

**HƏDİS: 3.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «HƏQİQƏTƏN DƏ, UCA ALLAH MƏNİM ÜMMƏTİMİN BİLMƏDƏN, UNUDARAQ VƏ MƏCBURİYYƏT QARŞISINDA QALARAQ ETMİŞ OLDUĞU GÜNAHLARINI BAĞIŞLAMIŞDIR.»[3]

**HƏDİS: 4.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ƏGƏR ÜÇ NƏFƏR BİRLİKDƏ OLARSA, ONDA İKİ NƏFƏR ÖZ ARASINDA PIÇILTI İLƏ DANIŞIB ÜÇÜNCÜ ŞƏXSİ KƏNARDA QOYMASINLAR.»[4]

**HƏDİS: 5.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÜSƏLMANLARIN QEYBƏTİNİ EDİB ONLARIN ARXASI İLƏ DANIŞMAYIN. ONLARIN EYİBLƏRİNİ (NÖQSANLARINI) VƏ XƏTALARINI AXTARIB ARAŞDIRMAYIN. HƏQİQƏTƏN DƏ, KİM ONLARIN EYİBLƏRİNİN (NÖQSANLARININ) VƏ XƏTALARININ ARXASI İLƏ DÜŞÜB AXTARIB ARAŞDIRARSA, ALLAH DA ONUN EYBİNİN ARXASI İLƏ DÜŞƏR. UCA ALLAH DA KİMİN EYBİNİN ARXASI İLƏ DÜŞƏRSƏ, O ŞƏXS EVİNİN İÇƏRİSİNDƏ OLSA BELƏ, ONUN EYBİNİ AÇIB ÜZƏ ÇIXARAR.»[5]

**HƏDİS: 6.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÖMİN ÖZ QARDAŞININ GÜZGÜSÜDÜR. ONDA BİR EYİB (QÜSUR) GÖRƏN ZAMAN ONU DÜZƏLDƏR.»[6]

**HƏDİS: 7.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM ÖZ EVİNƏ SALAMLA GİRƏRSƏ, O ŞƏXS UCA ALLAHIN HİMAYƏSİ ALTINDA OLAR.»[7]

---

[3] Sunən ibn-Məcə, 2045.
[4] Səhih əl-Buxari, 6288.
[5] Sunən əbu-Davud, 4882.
[6] Ədəbul-Mufrəd, 238.
[7] Ədəbul-Mufrəd, 1094.

**HƏDİS: 8.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAH GÖZƏLDİR VƏ GÖZƏL OLANI SEVİR.»[8]

**HƏDİS: 9.**

ƏBU - HUREYRADAN RƏVAYƏT OLUNAN HƏDİSDƏ BİR NƏFƏR ALLAH RƏSULUNA - ona Allahın salavatı və salamı olsun - DEDİ: *"EY ALLAHIN ELÇİSİ! BİR QADIN VAR, GECƏ NAMAZ QILIR, GÜNDÜZ ORUC TUTUR. YAXŞI İŞLƏR GÖRÜR, SƏDƏQƏ VERİR, LAKİN DİLİ İLƏ QONŞUSUNA ƏZİYYƏT VERİR."* BU ZAMAN ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: «O QADINDA XEYİR YOXDUR VƏ O QADIN CƏHƏNNƏM SAKİNLƏRİNDƏNDİR.» DEDİLƏR: *"EY ALLAHIN ELÇİSİ! BİR QADIN VAR, GÜNDƏ BEŞ VAXT NAMAZLARI QILIR, AZ BİR MİQDAR SƏDƏQƏ VERİR, LAKİN DİLİ İLƏ QONŞUSUNA ƏZİYYƏT VERMİR."* ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: «O QADIN CƏNNƏT SAKİNLƏRİNDƏNDİR.»[9]

**HƏDİS: 10.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «HƏQİQƏTƏN DƏ, SİZ QİYAMƏT GÜNÜ ÖZ ADLARINIZ VƏ ATALARINIZIN ADLARI İLƏ ÇAĞIRILACAQSINIZ. ONA GÖRƏ DƏ UŞAQLARINIZA GÖZƏL ADLAR QOYUN.»[10]

**HƏDİS: 11.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MƏRHƏMƏT ETMƏYƏN ŞƏXSƏ MƏRHƏMƏT OLUNMAZ, BAĞIŞLAMAYAN ŞƏXS BAĞIŞLANMAZ, ƏFV ETMƏYƏN ŞƏXS ƏFV EDİLMƏZ, ÖZÜNÜ GÜNAHLARDAN QORUMAYAN ŞƏXS QORUNMAZ.»[11]

---

[8] Səhih Muslim, 147.
[9] Ədəbul-Mufrəd, 119.
[10] Sunən əbu-Davud, 4948.
[11] Ədəbul-Mufrəd, 371.

**HƏDİS: 12.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ƏGƏR SİZDƏN BİRİNİZ (HARASA DAXİL OLMAQ ÜÇÜN) ÜÇ DƏFƏ İCAZƏ İSTƏSƏ VƏ ONA İCAZƏ VERİLMƏZSƏ, ONDA GERİ QAYITSIN.»[12]

**HƏDİS: 13.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm – DEMİŞDİR:* İNSAN VƏFAT EDƏN ZAMAN ONUN ÜÇ ƏMƏLİNDƏN BAŞQA DİGƏR BÜTÜN ƏMƏLLƏRİNİN SAVABI DAYANIR:

1. AXAR SƏDƏQƏ,
2. FAYDAL ELM,
3. ONUN ÜÇÜN DUA EDƏN ƏMƏLİSALEH ÖVLAD.[13]

**HƏDİS: 14.**

*ALLAH RƏSULUNA – sallallahu aleyhi və səlləm - DEDİLƏR:* «EY ALLAHIN ELÇİSİ, SƏN BİZİMLƏ ZARAFAT EDİRSƏNMİ?» ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: «HƏQİQƏTƏN DƏ, MƏN YALNIZ HAQQ OLANI DANIŞIRAM.»[14]

**HƏDİS: 15.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm – DEMİŞDİR:* «TƏMİZLİK İMANIN YARISIDIR.»[15]

**HƏDİS: 16.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR: CƏBRAYIL MƏNİM YANIMA GƏLİB DEDİ:* «EY MUHƏMMƏD, NƏ QƏDƏR İSTƏYİRSƏN YAŞA, HƏQİQƏTƏN DƏ, BİR GÜN ÖLƏCƏKSƏN. İSTƏDİYİNİ SEV, HƏQİQƏTƏN DƏ, BİR GÜN ONDAN AYRILACAQSAN. İSTƏDİYİN ƏMƏLİ ET, HƏQİQƏTƏN DƏ, SƏN ONUN ƏVƏZİNİ ALACAQSAN. BİL Kİ, MÖMİNİN ŞƏRƏFİ ONUN GECƏ NAMAZIDIR, HÖRMƏTİ İSƏ İNSANLARIN ƏLİNDƏ OLANA TAMAH SALMAMASIDIR.»[16]

---

[12] Səhih Muslim, 2153.
[13] Səhih Muslim, 1631.
[14] Sunən ət-Tirmizi, 1990.
[15] Səhih Muslim, 223.
[16] Səhih Hədislər Silsiləsi, 831.

**HƏDİS: 17.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «DÜNYAYA GƏLƏN HƏR UŞAQ İSLAM FİTRƏTİ (XÜSUSİYYƏTİ, ƏXLAQI) ÜZRƏ GƏLİR. SONRADAN ATASI VƏ ANASI ONU YA YAHUDİ, YA XRİSTİAN, YA DA MƏCUSİ EDİR».[17]

**HƏDİS: 18.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ƏGƏR TƏLƏSMƏSƏNİZ, ETDİYİNİZ DUANIZ QƏBUL OLUNACAQ. "DUA ETDİM, DUA ETDİM, BƏS NİYƏ MƏNİM DUAM QƏBUL OLMADI" - DEMƏYİN».[18]

**HƏDİS: 19.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «YAXŞI DOSTLA PİS DOSTUN MƏSƏLİ ƏTİR SATANLA KÖRÜK VURANIN MƏSƏLİNƏ BƏNZƏYİR. ƏTİR SATANLA DOSTLUQ ETSƏN, YA SƏNƏ ƏTİR HƏDİYYƏ EDƏR, YA SƏN ONDAN ƏTİR ALARSAN, YA DA ONDAN GÖZƏL QOXU GƏLDİYİNİ HİSS EDƏRSƏN. KÖRÜK VURANLA DOSTLUQ ETSƏN, YA SƏNİN PALTARINI YANDIRAR, YA DA ÜSTÜNDƏN HİSS, PAS, TÜSTÜ QOXUSU GƏLƏR».[19]

**HƏDİS: 20.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «UCA ALLAH MÜSƏLMANIN BAŞINA GƏLƏN HƏR HANSI BİR XƏSTƏLİKLƏ, YORĞUNLUQLA KƏDƏRLƏ, ÜZÜNTÜ İLƏ, ƏZAB-ƏZİYYƏTLƏ, QƏM-QÜSSƏ İLƏ, HƏTTA AYAĞINA BATAN TİKANLA ONUN GÜNAHLARINI BAĞIŞLAYIR.»[20]

**HƏDİS: 21.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SİZDƏN BİRİNİZ GÜNAH BİR ƏMƏLLƏ QARŞILAŞDIĞI ZAMAN ONU ƏLİ İLƏ DÜZƏLTSİN. ƏGƏR BACARMAZSA, ONDA DİLİ İLƏ İNKAR ETSİN. ƏGƏR DİLİ İLƏ İNKAR EDƏ BİLMƏSƏ, ONDA QƏLBİ İLƏ İNKAR ETSİN. BU, İMANIN ƏN ZƏİF HALIDIR.»[21]

---

[17] Səhih əl-Buxari, 1359.
[18] Səhih əl-Buxari, 6340.
[19] Səhih əl-Buxari, 5534.
[20] Səhih əl-Buxari, 5642. Səhih əl-Buxari, 5642.
[21] Səhih Müslim, 49.

**HƏDİS: 22.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «AĞILLI ADAM ÖZ NƏFSİNİ HAQQ-HESABA ÇƏKƏN VƏ ÖLÜMDƏN SONRAKI HƏYAT ÜÇÜN ÇALIŞAN ADAMDIR. ACİZ ADAM İSƏ NƏFSİNİN İSTƏK VƏ ARZULARINA UYAN VƏ SONRA ALLAHDAN ƏMİN-AMANLIQ UMAN ADAMDIR.»[22]

**HƏDİS: 23.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM MÖMİN KİŞİLƏR VƏ MÖMİN QADINLAR ÜÇÜN ALLAHDAN BAĞIŞLANMA İSTƏYƏRSƏ, ALLAH TƏALA ONA HƏR BİR MÖMİN KİŞİ VƏ MÖMİN QADININ SAYI QƏDƏR SAVAB YAZAR.»[23]

**HƏDİS: 24.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «HƏQİQİ SƏBİR MÜSİBƏTİN, ÇƏTİNLİYİN BAŞ VERDİYİ İLK ANDA GÖSTƏRİLƏN SƏBİRDİR.»[24]

**HƏDİS: 25.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM ALLAHDAN BAŞQA İBADƏTƏ HAQQI ÇATAN MƏBUDUN OLMADIĞINI BİLƏRƏK ÖLƏRSƏ, CƏNNƏTƏ DAXİL OLAR.»[25]

**HƏDİS: 26.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «NAMAZI AYAQ ÜSTƏ DAYANARAQ QIL. ƏGƏR AYAQ ÜSTƏ DAYANARAQ QILA BİLMƏSƏN, ONDA OTURARAQ QIL. ƏGƏR OTURARAQ QILA BİLMƏSƏN, ONDA UZANARAQ QIL.»[26]

**HƏDİS: 27.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QURANİ-KƏRİMİ MAHİR (GÖZƏL) ŞƏKİLDƏ OXUYAN ŞƏXS SƏYAHƏTÇİ, MÖHTƏRƏM VƏ ALLAHA İTAƏTKAR OLAN MƏLƏKLƏRLƏ BİRLİKDƏDİR. QURANİ-KƏRİMİ

---

[22] Sunən ət-Tirmizi, 2459.
[23] Səhih əl-Cəmi, 6026.

[24] Səhih əl-Buxari, 7154.

[25] Sunən ən-Nəsəi, 10887.
[26] Səhih əl-Buxari, 1117.

KƏKƏLƏYƏRƏK VƏ ÇƏTİNLİK ÇƏKMƏSİNƏ BAXMAYARAQ, DAVAMLI, ÇALIŞARAQ OXUYAN ŞƏXSƏ İSƏ İKİ SAVAB VARDIR.»[27]

**HƏDİS: 28.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «XƏSTƏNİ ZİYARƏT EDİN VƏ CƏNAZƏDƏ İŞTİRAK EDİN! ONA GÖRƏ Kİ, O SİZƏ AXİRƏTİ XATIRLADIR.»[28]

**HƏDİS: 29.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM ALLAHA VƏ AXİRƏT GÜNÜNƏ İNANIRSA, YA XEYİR DANIŞSIN YA DA SUSSUN. KİM ALLAHA VƏ AXİRƏT GÜNÜNƏ İNANIRSA, QONŞUSUNA YAXŞI DAVRANSIN. KİM ALLAHA VƏ AXİRƏT GÜNÜNƏ İNANIRSA QONAĞINA İKRAM ETSİN.»[29]

**HƏDİS: 30.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SİZİN ƏN XEYİRLİNİZ QURANI ÖYRƏNƏN VƏ ONU BAŞQALARINA DA ÖYRƏDƏN ŞƏXSDİR.»[30]

**HƏDİS: 31.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ŞÜHBƏSİZ Kİ, ALLAH SİZİN SURƏTLƏRİNİZƏ (ZAHİRİ GÖRKƏMLƏRİNİZƏ) VƏ MAL-MÜLKÜNÜZƏ BAXMAZ. O SİZİN QƏLBLƏRİNİZƏ VƏ ƏMƏLLƏRİNİZƏ BAXAR.»[31]

**HƏDİS: 32.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QONŞUSU ONUN ZƏRƏRİNDƏN VƏ ŞƏRRİNDƏN ƏMİN VƏ ARXAYIN OLMAYAN ŞƏXS CƏNNƏTƏ DAXİL OLMAZ.»[32]

---

[27] Səhih əl-Buxari, 4937.
[28] Səhih əl-Cəmi, 4109.
[29] Səhih əl-Buxari, 6475.
[30] Səhih əl-Buxari, 5027.
[31] Səhih Müslim, 2564.
[32] Səhih Muslim, 73.

**HƏDİS: 33.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QIZDIRMA XƏSTƏLİYİ İNSANIN GÜNAHLARINI KÖRÜYÜN DƏMİRİN PASINI APARDIĞI KİMİ SİLİB APARIR.»[33]

**HƏDİS: 34.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm – CÜMƏ GÜNÜNDƏN DANIŞDI VƏ BELƏ DEDİ:* «CÜMƏ GÜNÜNDƏ ELƏ BİR SAAT VAR Kİ, DURUB DUA EDƏN MÜSƏLMAN, ƏGƏR HƏMİN SAATA MÜVAFİQ OLUB ALLAHDAN NƏSƏ İSTƏSƏ, ALLAH TƏALA ONA İSTƏDİYİNİ VERƏR.» *ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - ƏLİ İLƏ - HƏMİN VAXTIN AZ OLMASINI GÖSTƏRDİ.*[34]

**HƏDİS: 35.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÜSƏLMAN BİR AĞAC ƏKƏR VƏ ƏKDİYİ AĞACIN MEYVƏSİNDƏN İNSAN VƏ YA HEYVAN YEYƏRSƏ, BU O AĞACI ƏKƏN MÜSƏLMAN ÜÇÜN SƏDƏQƏ SAYILAR.»[35]

**HƏDİS: 36.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ƏGƏR SƏN BİR MÜSƏLMANLA QARŞILAŞSAN, ONA SALAM VER VƏ ƏGƏR SƏNİ DƏVƏT EDƏRSƏ, ONUN DƏVƏTİNİ QƏBUL ET.»[36]

**HƏDİS: 37.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM ASAN, SADƏ VƏ YUMŞAQ XASİYYƏTLİDİRSƏ, ALLAH TƏALA ONA CƏHƏNNƏM ODUNU HARAM ETMİŞDİR.»[37]

**HƏDİS: 38.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM SÜBH NAMAZINI QILARSA, ALLAHIN HİMAYƏSİ (QORUMASI) ALTINDA OLAR.»[38]

---

[33] Səhih Muslim, 2575.
[34] Səhih əl-Buxari, 935.
[35] Səhih əl-Buxari, 6012.
[36] Səhih Muslim, 2162.
[37] Səhih əl-Cəmi, 6484.
[38] Səhih Muslim, 657.

**HƏDİS: 39.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ƏGƏR BİR İNSAN SƏNƏ SÖZ DANIŞIB VƏ SONRA DÖNÜB GEDƏRSƏ ARTIQ HƏMİN SÖZ ƏMANƏTDİR.»[39]

**HƏDİS: 40.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÖMİNİN HALI NECƏ DƏ TƏƏCCÜBLÜDÜR. ALLAH TƏALA ONUN BARƏSİNDƏ NƏ HÖKM VERİRSƏ VERSİN, ONUN XEYRİNƏ OLUR.»[40]

**HƏDİS: 41.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SƏNDƏN NƏSİHƏT ETMƏYİN İSTƏNDİKDƏ NƏSİHƏT ET.»[41]

**HƏDİS: 42.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM NAMAZLARINI VAXTLI-VAXTINDA QILARSA, BU NAMAZLAR QİYAMƏT GÜNÜ ONUN ÜÇÜN NUR, DƏLİL VƏ QURTULUŞ OLAR. KİM DƏ NAMAZLARI VAXTI VAXTINDA QILMAYIB SƏHLƏNKARLIQ EDƏRSƏ, ONUN ÜÇÜN NƏ BİR NUR, NƏ BİR DƏLİL OLAR VƏ O, ZİYANA UĞRAYAR. ÜSTƏLİK O, QİYAMƏT GÜNÜ QARUNLA, FİRONLA, VƏZİRİ HAMANLA VƏ UBEY İBN XALƏFLƏ BİRLİKDƏ OLAR.»[42]

**HƏDİS: 43.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SİZƏDƏN BİRİNİZ YATMAQ ÜÇÜN YATAĞINA GƏLDİKDƏ NAMAZ ÜÇÜN DƏSTƏMƏZ ALDIĞI KİMİ DƏSTƏMAZ ALSIN. SONRA İSƏ SAĞ TƏRƏFİ ÜSTƏ ÇEVRİLƏRƏK YATSIN.»[43]

**HƏDİS: 44.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «BƏNDƏNİN RƏBBİNƏ ƏN YAXIN OLDUĞU VAXT SƏCDƏDƏ OLDUĞU VAXTDIR. ODUR Kİ, SƏCDƏDƏ İKƏN DUALARI ÇOXLADIN.»[44]

---

[39] Sunən əbu-Davud, 4868.
[40] Səhih Hədislər Silsiləsi, 148.
[41] Səhih Muslim, 5778.
[42] İmam Əhməd, Musnəd, 6576.
[43] Səhih əl-Buxari, 247.
[44] Səhih Muslim, 482.

**HƏDİS: 45.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÜSƏLMANIN QARDAŞINI ÜÇ GÜNDƏN ARTIQ TƏRK ETMƏSİ İCAZƏLİ DEYİL.»[45]

**HƏDİS: 46.**

DEDİLƏR Kİ, *"EY ALLAHIN RƏSULU, HANSI DUA DAHA TEZ QƏBUL OLUR?"* ALLAH RƏSULU - *sallallahu aleyhi və səlləm -* DEDİ: «GECƏNİN SON HİSSƏSİNDƏ VƏ FƏRZ NAMAZLARININ AXIRINDA EDİLƏN DUA.»[46]

**HƏDİS: 47.**

*ABDULLAH İBN ÖMƏRDƏN - Allah ondan razı olsun - RƏVAYƏT OLUNAN HƏDİSDƏ ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «BİZ PEYĞƏMBƏRLƏR ÜÇ ŞEYLƏ ƏMR OLUNMUŞUQ: İFTARI TEZLƏŞDİRMƏKLƏ, SAHURU GECİKDİRMƏKLƏ, NAMAZ QILANDA SAĞ ƏLİ SOL ƏLİN ÜZƏRİNƏ QOYMAQLA.»[47]

**HƏDİS: 48.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - ŞƏHADƏT BARMAĞI İLƏ ORTA BARMAĞINI BİRLƏŞDİRƏRƏK DEDİ:* «MƏN VƏ YETİMİ HİMAYƏ EDƏN ŞƏXS CƏNNƏTDƏ, BAX BELƏ OLACAĞIQ.»[48]

**HƏDİS: 49.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ÖZÜNÜZLƏ HARAMLAR ARASINDA HALALDAN PƏRDƏ DÜZƏLDİN.»[49]

**HƏDİS: 50.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ADƏM ÖVLADI YAŞA DOLDUQCA ONDA İKİ ŞEYƏ QARŞI HƏRİSLİK (İSTƏK) ARTIR: MALA MÜLKƏ OLAN HƏRİSLİK, UZUN YAŞAMAĞA, HƏYATA OLAN HƏRİSLİK. »[50]

---

[45] Səhih əl-Buxari, 6064.

[46] Səhih ət-Tirmizi, 2318.
[47] Səhih əl-Cəmi, 2286.
[48] Səhih Tirmizi, 1918.
[49] Səhih əl-Cəmi, 152.
[50] Səhih Müslim, 1047.

**HƏDİS: 51.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* QEYBİN AÇARLARI BEŞDİR VƏ BUNU ALLAHDAN BAŞQA HEÇ KİM BİLMİR:

1. SABAH NƏ OLACAĞINI ANCAQ ALLAH BİLİR.
2. ANA BƏTNİNDƏ OLAN UŞAĞIN DOQQUZ AYDAN TEZ, YAXUD GEC DOĞULACAĞINI ANCAQ ALLAH BİLİR.
3. YAĞIŞIN NƏ VAXT YAĞACAĞINI ALLAHDAN BAŞQA HEÇ KİM BİLMİR.
4. HEÇ KİM HARADA ÖLƏCƏYİNİ BİLMİR.
5. QİYAMƏTİN NƏ ZAMAN OLACAĞINI ALLAHDAN BAŞQA HEÇ KİM BİLMİR.[51]

**HƏDİS: 52.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SALAMLAYARKƏN KİÇİK BÖYÜYÜ, ÖTÜB KEÇƏN OTURANI, AZ OLAN İSƏ ÇOX OLANLARI SALAMLAYIR.»[52]

**HƏDİS: 53.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QURBAN ƏTİNDƏN ÖZÜNÜZ DƏ YEYİN, BAŞQALARINA DA VERİN VƏ ÖZÜNÜZƏ EHTİYAT ÜÇÜN DƏ GÖTÜRÜN.»[53]

**HƏDİS: 54.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÜSƏLMANIN KİŞİNİN YANINDA OLMAYAN ÖZ MÜSƏLMAN QARDAŞI ÜÇÜN ETDİYİ DUA QƏBULDUR. QARDAŞI ÜÇÜN DUA EDƏN KİŞİNİN BAŞININ ÜSTÜNDƏ TƏYİN OLUNMUŞ BİR MƏLƏK VARDIR VƏ O HƏR DƏFƏ QARDAŞI ÜÇÜN XEYİR DUA ETDİKDƏ MƏLƏK DEYİR: AMİN! EYNİSİ SƏNİN ÜÇÜN DƏ OLSUN.»[54]

---

[51] Səhih əl-Buxari, 4697.

[52] Səhih əl-Buxari, 6231.
[53] Səhih əl-Buxari, 5569.
[54] Səhih Muslim, 2273.

**HƏDİS: 55.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ŞÜBHƏSİZ Kİ, ƏSNƏMƏK ŞEYTANDANDIR. SİZDƏN BİRİNİZ ƏSNƏDİYİ ZAMAN BACARDIĞI QƏDƏR ONU TUTSUN. HƏQİQƏTƏN DƏ, SİZDƏN BİRİ ƏSNƏYƏN ZAMAN (AĞZIN AÇIB): "HAAH" - DEDİKDƏ ŞEYTAN GÜLÜR.»[55]

**HƏDİS: 56.**

ALLAH NƏBİSİNDƏN - *sallallahu aleyhi və səlləm* - SORUŞDULAR: *"EY ALLAHIN ELÇİSİ! MƏN ƏN ÇOX KİMƏ YAXŞILIQ ETMƏLİYƏM?"* ALLAH RƏSULU - *sallallahu aleyhi və səlləm* - DEDİ: «ANANA.» KİŞİ DEDİ: *"SONRA KİMƏ?"* ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: «ANANA.» KİŞİ DEDİ: *"SONRA KİMƏ?"* ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: «ANANA.» KİŞİ DEDİ: *"SONRA KİMƏ?"* ALLAH RƏSULU - *sallallahu aleyhi və səlləm* - DEDİ: «SONRA ATANA.»[56]

**HƏDİS: 57.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MƏN CƏNNƏTƏ DAXİL OLDUM VƏ ORADA BİR OXUNUŞ EŞİTDİM VƏ DEDİM Kİ, BU OXUYAN KİMDİR?» *DEDİLƏR Kİ, HARİS İBN NUMANDIR.* ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: «YAXŞILIQ, BAX, BELƏDİR, YAXŞILIQ, BAX, BELƏDİR. HARİS İBN NUMAN ANASI İLƏ ƏN GÖZƏL RƏFTAR EDƏN İNSANLARDAN BİRİ İDİ.»[57]

**HƏDİS: 58.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM YEMƏK YEYİB QURTARDIQDAN SONRA - "HEÇ BİR GÜC, QÜVVƏ SƏRF ETMƏDƏN BU YEMƏYİ MƏNƏ YEDİRDƏN VƏ BU YEMƏKLƏ MƏNİ RUZİLƏNDİRƏN ALLAHA HƏMD OLSUN" - DEYƏRSƏ, ONUN KEÇMİŞ GÜNAHLARI BAĞIŞLANAR.»[58]

---

[55] Səhih əl-Buxari, 3289.
[56] Səhih əl-Buxari, 5791.
[57] Səhih Hədislər Silsiləsi, 913.
[58] Səhih ət-Tirmizi, 3458.

**HƏDİS: 59.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM CƏNNƏTİN ORTASINI İSTƏYİRSƏ, ONDA CAMAATLA BİRLİKDƏ OLSUN.»[59]

**HƏDİS: 60.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «TƏMKİNLİ OLUB TƏLƏSMƏMƏK HƏR BİR İŞDƏ XEYİRLİDİR, YALNIZ AXİRƏT ƏMƏLLƏRİNDƏN BAŞQA.»[60]

**HƏDİS: 61.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAH YANINDA ƏN FƏZİLƏTLİ NAMAZ CÜMƏ GÜNÜ CAMAATLA BİRLİKDƏ QILINAN SÜBH NAMAZIDIR.»[61]

**HƏDİS: 62.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QİYAMƏT İNSANLARIN ƏN ŞƏRLİLƏRİNİN ÜZƏRİNƏ QOPACAQDIR.»[62]

**HƏDİS: 63.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİMİN BU DÜNYADA İKİ ÜZÜ OLARSA, ONUN QİYAMƏT GÜNÜ ALOVDAN İKİ DİLİ OLACAQ.»[63]

**HƏDİS: 64.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «(GÜNAHA GÖRƏ) PEŞMANÇILIQ ÇƏKMƏK TÖVBƏDİR. GÜNAHDAN TÖVBƏ EDƏN GÜNAHI OLMAYAN ŞƏXS KİMİDİR.»[64]

---

[59] Səhih ət-Tirmizi, 2165.

[60] Səhih əbu-Davud, 4810.
[61] Səhih əl-Cəmi, 1119.
[62] Səhih Muslim, 2949.
[63] Səhih əbu-Davud, 4873.

[64] Səhih əl-Cəmi, 6803.

**HƏDİS: 65.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAHA AND OLSUN Kİ, UCA ALLAH SEVDİYİNİ CƏHƏNNƏM ODUNA ATMAZ.»[65]

**HƏDİS: 66.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAH YANINDA ƏN BÖYÜK GÜNAHLARDAN BİRİ DƏ BİR HEYVANI ƏBƏS YERƏ ÖLDÜRMƏKDİR.»[66]

**HƏDİS: 67.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAHIN ƏLİ CAMAATLA BİRLİKDƏDİR.»[67]

**HƏDİS: 68.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ŞÜBHƏSİZ Kİ, UCA ALLAH SİZİN ARANIZDA RUZİNİ BÖLDÜYÜ KİMİ ƏXLAQI DA BÖLMÜŞDÜR. HƏQİQƏTƏN DƏ, ALLAH DÜNYANI SEVDİYİNƏ DƏ, SEVMƏDİYİNƏ DƏ VERƏR, İMANI İSƏ YALNIZ SEVDİYİ KƏSƏ VERƏR. KİM MALINI VERMƏKDƏ XƏSİSLİK EDİRSƏ, DÜŞMƏNLƏ QARŞI-QARŞIYA GƏLİB CİHAD ETMƏKDƏN QORXURSA VƏ GECƏ NAMAZINA QALXMAĞA GÜCÜ ÇATMIRSA, ONDA ÇOXLU SUBHƏNALLAH, ƏLHƏMDULİLLƏH, LƏ İLƏHƏ İLLƏLLAH, ALLAHU ƏKBƏR DESİN.»[68]

**HƏDİS: 69.**

*ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR:* «SEYHAN, CEYHAN, FURAT VƏ NİL - HAMISI CƏNNƏT ÇAYLARINDANDIR.»[69]

---

[65] Səhih əl-Cəmi, 7095.

[66] Səhih əl-Cəmi, 1567.

[67] Səhih ət-Tirmizi, 2167.

[68] Silsilətus-Səhihə, 2714.

[69] Səhih Muslim, 2839.

**HƏDİS: 70.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «CƏNNƏTƏ ANCAQ MÖMİNLƏR DAXİL OLACAQ.»[70]

**HƏDİS: 71.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SÜD İÇDİKDƏN SONRA AĞZINIZI SU İLƏ YAXALAYIN. ONA GÖRƏ Kİ, SÜD YAĞLI OLUR.»[71]

**HƏDİS: 72.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «"ƏS-SƏLƏM" ADI UCA ALLAHIN BİZLƏRƏ MƏLUM OLAN ADLARINDAN BİRİDİR. ONA GÖRƏ DƏ ARANIZDA SALAMI YAYIN.»[72]

**HƏDİS: 73.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm – DEMİŞDİR:* «SİZDƏN BİRİNİZ VURAN ZAMAN ÜZƏ VURMAQDAN ÇƏKİNSİN, ÜZƏ VURMASIN. »[73]

**HƏDİS: 74.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «HƏQİQƏTƏN DƏ, SİZİN KÖKSÜNÜZDƏ OLAN İMAN PALTARIN KÖHNƏLDİYİ KİMİ KÖHNƏLİR. ALLAHDAN QƏLBLƏRİNİZDƏ OLAN İMANI TƏZƏLƏMƏSİNİ İSTƏYİN.»[74]

**HƏDİS: 75.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «MÖMİNDƏ BU İKİ XÜSUSİYYƏT CƏM OLMAZ: PAXILLIQ VƏ PİS ƏXLAQ.»[75]

---

[70] Səhih Muslim, 114.
[71] Sunən ibn-Məcə, 499.
[72] Səhih əl-Cəmi, 1639.
[73] Səhih Sunən əbu-Davud, 4493.
[74] Səhih Hədislər Silsiləsi, 1585.
[75] Səhih ət-Tərğib, 6908.

**HƏDİS: 76.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «FİRDOVS CƏNNƏTİ CƏNNƏTİN ƏN YÜKSƏK YERİDİR. O, CƏNNƏTİN ƏN ORTASI VƏ ƏN YAXŞISIDIR.»[76]

**HƏDİS: 77.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QİYAMƏT GÜNÜ ALLAH YANINDA ƏN ŞƏRLİ İNSAN, ŞƏRRİNDƏN QORUNMAQ MƏQSƏDİLƏ BAŞQA İNSANLARIN TƏRK ETDİYİ İNSANDIR.»[77]

**HƏDİS: 78.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ƏGƏR BİR GÜNAH ETSƏN, ARDINCA DƏRHAL YAXŞI İŞ GÖR Kİ, ONU SİLSİN.»[78]

**HƏDİS: 79.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM CÜMƏ GÜNÜ VƏ YAXUD DA CÜMƏ GECƏSİ VƏFAT EDƏRSƏ, QƏBİR ƏZABINDAN QORUNMUŞ OLAR.»[79]

**HƏDİS: 80.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAH YANINDA ƏN XEYİRLİ QONŞULAR ÖZ QONŞUSUNA QARŞI XEYİRLİ OLAN QONŞULARDIR.»[80]

**HƏDİS: 81.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm – DEMİŞDİR:* «PEYĞƏMBƏR (sallallahu aleyhi və səlləm) ASQIRAN ZAMAN ƏLİ İLƏ VƏ YA ƏBASI İLƏ AĞZINI TUTAR, SƏSİNİ AŞAĞI EDƏRDİ VƏ YA ONUNLA SƏSİNİ BOĞARDI.»[81]

---

[76] Səhih Hədislər Silsiləsi, 2003.
[77] Səhih əl-Buxari, 6032.
[78] Səhih əl-Cəmi, 790.
[79] Səhih ət-Tirmizi, 1074.

[80] Səhih ət-Tirmizi, 1944.
[81] Sunən ət-Tirmizi, 2745.

**HƏDİS: 82.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «İNSAN ŞEYTANDAN ANCAQ VƏ ANCAQ ALLAHI ZİKR ETMƏKLƏ XİLAS OLA BİLƏR.»[82]

**HƏDİS: 83.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm – DEMİŞDİR:* «KİM SUSAMIŞ BİR MÜSƏLMANA SU İÇİRƏRSƏ, UCA ALLAH ONA CƏNNƏTDƏ MÖHÜRLÜ ŞƏRABDAN SU İÇİRƏCƏK. »[83]

**HƏDİS: 84.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «UCA ALLAH QİYAMƏT GÜNÜ DEYƏCƏK: "BİR-BİRİNİ MƏNİM ÜÇÜN SEVƏNLƏR HARADADIR? BU GÜN – MƏN MƏNİM KÖLGƏMDƏN BAŞQA BİR KÖLGƏNİN OLMADIĞI GÜN MƏN ONLARI ÖZ KÖLGƏMDƏ KÖLGƏLƏNDİRƏCƏYƏM.»[84]

**HƏDİS: 85.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM İNSANLARIN MALINI QAYTARMAQ MƏQSƏDİLƏ GÖTÜRƏRSƏ, ALLAH TƏALA ONA QAYTARMAQDA KÖMƏKLİK EDƏR. KİM DƏ İNSANLARIN MALINI TƏLƏF ETMƏK MƏQSƏDİLƏ GÖTÜRƏRSƏ, ALLAH TƏALA O ADAMI TƏLƏF EDƏR.»[85]

**HƏDİS: 86.**

*ABDULLAH İBN ƏBU-ƏVFƏDƏN - Allah ondan razı olsun - RƏVAYƏT OLUNAN HƏDİSDƏ DEYİR:* «ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - ÇOXLU ZİKR EDƏN, LAZIMSIZ YERƏ DANIŞMAYAN, NAMAZI UZUN QILAN, XÜTBƏNİ QISA EDƏN BİR ŞƏXS İDİ. O NƏ QURRƏLƏNİR, NƏ DƏ TƏKƏBBÜRLÜK EDİRDİ. DUL QADINLARIN, KASIBLARIN VƏ KÖLƏLƏRİN YANINA GEDƏR, ONLARA KÖMƏKLİK EDƏR VƏ ONLARIN EHTİYACLARINI QARŞILAYARDI.»[86]

---

[82] Səhih ət-Tərğib, 1612.

[83] Sunən əbu-Davud, 1682.

[84] Səhih Muslim, 2566.

[85] Səhih əl-Buxari, 2387.

[86] Səhih əl-Cəmi, 5005.

**HƏDİS: 87.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QADINLARIN ƏN XEYİRLİSİ ƏRİ ONA BAXANDA SEVİNƏN QADINDIR.»[87]

**HƏDİS: 88.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «BİLİN Kİ, ALLAHA ƏN SEVİMLİ OLAN ƏMƏL AZ OLSA DA, DAVAMLI OLAN ƏMƏLDİR.»[88]

**HƏDİS: 89.**

*ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM ALLAH TƏALANIN ONUN DUASINI ÇƏTİNLİK VƏ SIXINTI VAXTLARINDA QƏBUL ETMƏSİNİ İSTƏYİRSƏ, ONDA RAHATLIQ VƏ ƏMİN-AMANLIQ VAXTI DUA ETMƏYİ ÇOXALTSIN.»[89]

**HƏDİS: 90.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SƏN ALLAHI RAHATLIQ VƏ ƏMİN-AMANLIQ VAXTI YADA SAL Kİ, ALLAH DA SƏNİ SƏN ÇƏTİNƏ DÜŞƏNDƏ YADA SALSIN.»[90]

**HƏDİS: 91.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «KİM ALLAH YOLUNDA KÖMƏKLİK EDİB XƏRCLƏYƏRSƏ, ONA VERDİYİNİN YEDDİ YÜZ QATI YAZILAR.»[91]

**HƏDİS: 92.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «QADINI ƏRİNƏ QARŞI QALDIRIB AYAQLANDIRAN VƏ YAXUD DA KÖLƏNİ AĞASINA QARŞI QALDIRIB AYAQLANDIRAN BİZDƏN DEYİLDİR.»[92]

---

[87] Səhih əl-Cəmi, 3298.
[88] Səhih Muslim, 2818.

[89] Səhih əl-Cəmi, 6290.
[90] Sunən ət-Tirmizi, 2516.
[91] Sunən ət-Tirmizi, 1625.
[92] Səhih əbu-Davud, 2175.

**HƏDİS: 93.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «DİLDƏ DEYİLİŞİ YÜNGÜL, TƏRƏZİDƏ AĞIR GƏLƏN VƏ MƏRHƏMƏTLİ ALLAHA SEVİMLİ OLAN İKİ KƏLMƏ VARDIR: SUBHƏNALLAHİ VƏ BİHƏMDİH, SUBHƏNALLAHİL AZİM.»[93]

**HƏDİS: 94.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ZƏNGİN MAL-MÜLKÜ ÇOX OLAN DEYİLDİR. ƏSL ZƏNGİN QƏLBİ ZƏNGİN OLANDIR.»[94]

**HƏDİS: 95.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «ALLAHIM! ÜMMƏTİMİN SƏHƏR ÇAĞINA BƏRƏKƏT VER.»[95]

**HƏDİS: 96.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SİZDƏN HEÇ KİM QARDAŞININ ƏŞYASINI NƏ ZARAFATLA, NƏ DƏ CİDDİ GÖTÜRMƏSİN.»[96]

**HƏDİS: 97.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «İNSANLAR BİR-BİRİNƏ HƏSƏD ETMƏDİKCƏ XEYİR İÇƏRİSİNDƏ OLARLAR.»[97]

**HƏDİS: 98.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «YERİYƏN ZAMAN ƏTRAFINA, ELƏCƏ DƏ GERİYƏ BAXMA.»[98]

---

[93] Səhih Muslim, 2694.

[94] Səhih əl-Buxari, 6446.

[95] Səhih ibn-Məcə, 1832.

[96] Səhih ət-Tərğib, 2808.

[97] Səhih ət-Tərğib, 2887.

[98] Səhih Hədislər Silsiləsi, 2086.

**HƏDİS: 99.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «SİZLƏRƏ CƏNNƏT XƏZİNƏLƏRİNDƏN OLAN BİR KƏLMƏ HAQQINDA XƏBƏR VERİMMİ? SƏN "LƏƏ HƏVLƏ VƏ LƏƏ QUVVƏTƏ İLLƏ BİLLƏH" DEYƏN ZAMAN UCA ALLAH DEYİR: "MƏNİM QULUM TƏSLİM OLUB İTAƏT ETDİ".»[99]

**HƏDİS: 100.**

*ALLAH RƏSULU – sallallahu aleyhi və səlləm - DEMİŞDİR:* «BİR XURMA BELƏ OLMUŞ OLSA, SƏDƏQƏ VERİN. HƏQİQƏTƏN DƏ, BU ƏMƏL ACLIĞIN (KASIBLIĞIN) QARŞISINI ALIR VƏ GÜNAHLARI SUYUN ATƏŞİ SÖNDÜRDÜYÜ KİMİ SÖNDÜRÜR.»[100]

[99] Səhih əl-Cəmi, 2614.
[100] Səhih əl-Cəmi, 2951.

# MÜVƏFFƏQ EDƏN

# ALLAHA HƏMD OLSUN.